*Azərbaycan Respublikası Təhsil Nazirliyinin*
*14.09.2018-ci il tarixli F-644 nömrəli əmri ilə təsdiq edilmişdir.*

**Xarici dillər təmayüllü lisey və gimnaziyaların**
**tədris planlarına dair qeydlər**

1. Şagirdlərin sayı 20 və daha çox olan siniflər aşağıdakı fənlərin tədrisində iki qrupa bölünür:

1.1. Tədris rus dilində aparılan I-XI siniflərdə "Azərbaycan dili", tədris dilindən asılı olmayaraq I-XI siniflərdə "Xarici dil" , V-XI siniflərdə "İkinci xarici dil", V-IX siniflərdə "Texnologiya", V-XI siniflərdə fiziki tərbiyə, X-XI sinifdə "İnformatika" fənni üzrə praktik məşğələlər.

2. Tədrisi səmərəli təşkil etmək məqsədilə tədris planlarında seçmə fənlərə, dərsdənkənar məşğələlərə, fakültativ, fərdi və qrup məşğələlərinə ayrılmış saatlardan aşağıdakı kimi istifadə olunur:

2.1 Dərsdənkənar məşğələlərə ayrılan saatlardan dərs cədvəlinə daxil edilməklə I sinifdə 1 (bir) saatı, II-IV siniflərdə 2 (iki) saatı, V-VIII siniflərdə 1 (bir) saatı, IX sinifdə 2(iki) saatı "Xarici dil"in tədrisinə verilmişdir. Dərsdənkənar məşğələlərə ayrılan saatlardan dərs cədvəlinə daxil edilməklə V-VII siniflərdə 1 (bir) saatı "İkinci xarici dil"in tədrisinə verilmişdir.

2.2. Dərsdənkənar məşğələlərə ayrılan saatlardan dərs cədvəlinə daxil edilməklə 1 (bir) saatı VIII siniflərdə "Qarabağın tarixi" kursunun tədrisinə ayrılır.

2.3. V-IX siniflərdə dərsdənkənar məşğələlərə ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə 1 (bir) saatı "Nitq mədəniyyəti"nin tədrisinə verilmişdir.

2.4. X-XI siniflərdə dərsdənkənar məşğələlərə ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə 2 (iki) saatı "Xarici dili"nin, 1 (bir) saatı "İkinci xarici dil"in, 1 (bir) saatı "Üslubiyyat"ın tədrisinə verilmişdir.

.